UOT 021

**Arzu Çələbi**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant*
e-mail: a.chelebi@mail.ru

# AZƏRBAYCAN KİTABXANALARININ ÖLKƏŞÜNASLIQ FƏALİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

**Açar sözlər:** *diyarşünaslıq biblioqrafiyası, informasiya təminatı, biblioqrafik vəsaitlər, milli kitabxana, məlumat biblioqrafiya bazası* **.**
**Ключевые слова***: краеведческая библиография, информационное обеспечение, библиографические пособия, национальная библиотека, информационно-библиографическая база.*
**Keywords:** *local history bibliography, information support, bibliographies, National library, information bibliographic database.*

Avrasiyanın incisi Xəzərin sahillərində yerləşən, Şərqlə Qərbin qovuşduğu bir məkan olan Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti və multikultural dəyərləri olan etnik tərkibi var. Odlar yurdu vətənimiz qədim dövrlərdən təkcə tükənməz təbii sərvətlər mənbəyi və neft diyarı kimi yox, eləcə də böyük tarixi şəxsiyyətlər, elm, mədəniyyət və incəsənət xadimləri yetirən bir məmləkət kimi tanınır. Böyük şəxslərin və görkəmli ziyalıların fəaliyyəti nəticəsində ölkəmiz siyasət, elm, mədəniyyət, incəsənət və s. sahələrdə bəşər sivilizasiyasına öz layiqli töhfələrini vermiş və bundan sonra da uğurlarımızın davam edəcəyi şübhəsizdir. Bütün bu uğurlarımızı təbliğ etmək, oxuculara tariximizlə bağlı daha geniş, əhatəli və sistemli biliklər qazandırmaq, yeni-yeni məlumatlar öyrətmək, onlarda vətənpərvərlik, qəhrəmanlıq, əməksevərlik hisslərinin dərinləşməsinə təsir etmək, ölkənin və doğma diyarın ədəbi dəyərləri, görkəmli şəxslərin həyatı barədə həqiqətləri çatdırmaq daim kitabxanaların qarşısında duran mühüm vəzifələrdən biri olmuşdur. Bu vəzifələrin uğurla həyata keçirilməsi öz növbəsində kitabxanalarımızdan ölkəşünaslıq (diyarşünaslıq) fəaliyyətinin düzgün qurulmasını və reallaşdırılmasını tələb edir.

Ölkəşünaslıq (diyarşünaslıq) fəaliyyəti – *hər bir ölkənin bütövlükdə və onun ayrı-ayrı guşələrinin (diyar) təbii coğrafi şəraitinin, tarixinin, mədəniyyətinin, etnoqrafiyasının, adət və ənənələrinin öyrənilməsi və təbliği ilə məşğul olan elmi-təcrübi fəaliyyət sahəsidir.*

Hazırda ölkəmizdə müstəqil dövlət quruculuğunun inkişafı şəraitində əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş mühüm, aparıcı ideya olan Azərbaycançılıq məfkurəsinin əsas istiqaməti kimi Azərbaycanşünaslıq sahəsində kitabxanalarımızın da üzərinə ciddi vəzifələr düşür. Bu məqalədə ölkənin ən böyük və zəngin sənəd fondlarına malik 3 iri kitabxana-informasiya mərkəzi: Azərbaycan Milli Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının ölkəşünaslıq fəaliyyətinin müasir vəziyyəti və perspektivləri

araşdırılmışdır.

Bu sahədə elmi-metodik mərkəz funksiyasını həyata keçirən və 1923-cü ildə təşkil edilmiş Azərbaycan Milli Kitabxanasının (bundan sonra - AMK) fəaliyyəti xüsusilə qeyd edilməlidir. Hələ 1923-cü ilin iyul ayında Kitabxana Şurasının iclasında kitabxananın Şərq şöbəsində ədəbiyyatın alınması üçün xüsusi komissiyanın təşkil olunması qərara alınmış və sonraki dövrdə bu istiqamətdə işlər davam etdirilmişdir [3].

1963-cü ildə AMK-da müstəqil "Diyarşünaslıq və milli biblioqrafiya" bölməsinin yaradılması və Əsasnaməsinin hazırlanması kitabxananın ölkəşünaslıq fəaliyyətində əlamətdar olmuşdur [4]. Bölmənin əsasnaməsinə görə onun əsas vəzifəsi Azərbaycanşünaslığa dair bütün materialları toplayıb oxucuların istifadəsinə verməklə yanaşı, bu ədəbiyyatın soraq-biblioqrafiya aparatında geniş əksinə diqqət yetirmək, "Azərbaycanşünaslıq" kartotekasını daha da təkmilləşdirmək, ölkəşünaslıq mövzusunda biblioqrafik göstəricilər hazırlamaq, respublikanın şəhər və rayonlarındakı kütləvi kitabxanalarda diyarşünaslıq biblioqrafik fəaliyyətin təşkilinə köməklik göstərmək idi. Elmi-metodik mərkəz olaraq AMK-da 1974-cü ildən "Diyarşünaslıq və milli biblioqrafiya" bölməsi daha geniş statuslu "Diyarşünaslıq və milli biblioqrafiya" (indiki Diyarşünaslıq elmi biblioqrafiya) şöbə kimi fəaliyyətini davam etdirir.

Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini yenidən bərpa etdikdən sonra da AMK-da ölkəşünaslıq işi sahəsində əhəmiyyətli işlər aparılmış və hazırda uğurla davam etdirilir. Belə ki, Azərbaycanın inkişafı və dünyaya tanıdılmasında ümummilli liderimiz Heydər Əliyevin əzmkar fəaliyyəti AMK-nın ölkəşünaslıq fəaliyyətində mühüm əhəmiyyət kəsb etmiş və Ulu öndərin siyasi kursunun layiqli davamçısı, ölkə başçısı, ali baş komandan, cənab İlham Əliyevin yürütdüyü uzaqgörən siyasət bu istiqamətdə AMK-nın fəaliyyətini daha da optimallaşdırmağa imkan yaratmışdır.

Ölkə başçısı cənab İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, kitab və kitabxana işinin inkişafında tamamilə yeni bir mərhələnin əsası qoyulmuşdur. Cənab prezidentin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı dünya miqyasında analoqu olmayan bir humanitar aksiya səviyyəsinə qalxmış və Azərbaycan kitabxanalarının, o cümlədən AMK-nın latın qrafikalı milli ədəbiyyat fondunun formalaşmasında əvəzsiz rol oynamışdır. Bu sərəncama müvafiq olaraq 600 addan çox kitab nəşr olunaraq cənab Prezidentin hədiyyəsi kimi kitabxanalara təmənnasız paylanmışdır.

Bu nəşrlərin hər birindən 100 nüsxə AMK-ya verilməsi Azərbaycanın dünyada təbliği məqsədilə on minlərlə kitabın beynəlxalq kitab mübadiləsi yolu ilə dünya milli kitabxanalarına, beynəlxalq kitab sərgi-yarmarkalarına göndərilməsinə imkan yaratmışdır. Eyni zamanda, bu kitabların elektron kitabxanası yaradılaraq oxucuların istifadəsinə verilmişdir. Elektron kitabxana AMK-nın (www.anl.az) veb saytı vasitəsilə onlayn rejimdə respublika ərazisində və bütün dünyada həmin ədəbiyyatı təbliğ edir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-

2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının ayrı-ayrı bəndlərində Azərbaycanşünaslığın daha da inkişaf etdirilməsi ilə bağlı bir çox məsələlər bu gün artıq öz həllini tapmışdır [2]. Kitabxanaların veb-səhifələrində "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan muzeyləri", "Azərbaycanın turizm gözəllikləri" elektron məlumat bazaları yaradılmış və geniş ictimaiyyətin istifadəsinə verilmişdir. İndi nəinki Azərbaycan kitabxanalarında, hətta bir sıra xarici ölkələrin - İsveç, ABŞ, Macarıstan, Serbiya, Böyük Britaniya, Ukrayna, Belarus, Avstriya aparıcı kitabxanalarında "Azərbaycan guşələri" yaradılmışdır.

Azərbaycanın dünyada tanıdılması, ölkənin beynəlxalq nüfuzunun artırılması istiqamətində respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, "YUNESKO" və "İSESKO"-nun xoşməramlı səfiri, xanım Mehriban Əliyeva çox mühüm işlər görür. Onun Azərbaycan mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərimizin təbliğinə göstərdiyi diqqət və qayğı sayəsində mədəniyyətimiz, incəsənətimiz dünya arenasında tanınır, bəyənilir və qəbul olunur. Təsadüfi deyil ki, "YUNESKO"nun qərarı ilə bir çox tarixi, mədəni və mənəvi abidələrimiz bəşəri mədəniyyətə malik abidələr siyahısına daxil edilmişdir. Heydər Əliyev Fondu 2007-ci ildən başlayaraq xarici ölkələrdə festivallar, mədəniyyət günləri, sərgilər, Azərbaycana həsr olunmuş kitabların təqdimatları, Azərbaycanı, onun tarixini və zəngin mədəniyyətini tanıtmaq məqsədilə mütəmadi olaraq müxtəlif ölkələrdən məktəblilərin, tələbələrin Azərbaycana səfərlərini təşkil edir, Azərbaycanla bağlı müxtəlif müsabiqələr keçirir.

Tam əminliklə demək olar ki, AMK bundan sonra da Azərbaycanşünaslığın (diyarşünaslığın) təbliğində yaxından iştirak edərək, cəmiyyətimizin, xalqımızın bu sahədəki informasiyaya artan tələbatını ödəməklə öz töhfəsini verəcəkdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası (bundan sonra MEK) Respublikada milli və dünya əhəmiyyətli elmi nəşrlərlə zəngin fondlara malik olan ən iri, universal təmayüllü aparıcı elmi kitabxanadır. MEK zəngin elmi ədəbiyyatın mühafizəçisi, elmi fikrin inkişaf mənbəyi olaraq, eyni zamanda elmi infrastrukturun ayrılmaz hissəsidir.

Müstəqillik dövründə AMEA-nın əsas struktur vahidlərindən olan MEK uzun müddət (2003-2013) kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi-tədqiqat müəssisəsi olmuş, hazırda kitabxana fondlarının mühafizə, konservasiyası və bərpası, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, müasir informasiya texnologiyalarının istifadəsi və tətbiqi, elmin analitik-informasiya təminatı sahələrində fəaliyyət göstərən elmi xidmət müəssisəsidir. MEK öz inzibati idarəçilik sisteminə daxil olan kitabxanalar üçün metodik əlaqələndirmə mərkəzidir. Respublikadakı elmi universal və sahəvi kitabxanalarla əlaqələndirilmiş kitabxana-biblioqrafiya xidmətini həyata keçirən baş elmi informasiya mərkəzidir.

Bu gün MEK möhtəşəm kitab məbədi olaraq ölkəmizdə təbiətşünaslıq, texnika, sosial, iqtisadi və humanitar elm sahələri üzrə ən iri elmi kitabxanadır və hazırda dünya xalqlarının 50 dilində 2 milyondan artıq informasiya resursları fonduna malikdir. Bu zəngin xəzinəyə Azərbaycan, Şərq və Avropa xalqlarının dillərində orta əsrlərdən dövrümüzə qədər nəşr edilmiş elmi monoqrafiyalar, nadir və qiymətli nəşrlər, dissertasiyalar, dövri nəşrlər, xəritə və atlaslar, məlumat nəşrləri, təsviri sənət materialları və elektron nəşrlər daxildir.

Son illərdə MEK-in həyatında yeni mərhələnin başlanğıcı, yenidənqurma və böyük islahatlar illəri kimi xarakterizə olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamı və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" MEK-in həyatında xüsusilə də, ölkəşünaslıq fəaliyyətinin inkişafına təkan vermişdir.

Bu günə qədər MEK-də formalaşmış informasiya sərvətləri Azərbaycan elminin intellektual potensialı, onun qüvvəsi və qüdrətidir. Fəaliyyət göstərdiyi dövrdə MEK ölkəmizdə elmi araşdırmalar aparan alim və mütəxəssislərin informasiya təminatının optimallaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirmiş, onların dünya informasiya məkanına inteqrasiyası üçün lazımi şərait yaratmışdır.

Hazırda MEK-də oxuculara xidmət işinin informasiyalaşdırılması istiqamətində avtomatlaşdırılmış kitabxana-informasiya sistemi vasitəsilə elektron kataloq yaradılır, Azərbaycan Milli Elmlər Akademiyasının digər institutları ilə birgə koorporativ şəbəkə-toplu elektron kataloqu formalaşdırılır. Eyni zamanda elektron məlumat bazaları yaradılır və mütəmadi olaraq zənginləşdirilir. Ölkəşünaslıq fəaliyyəti istiqamətində "Azərbaycanşünaslıq" elektron informasiya bankı üzrə "Azərbaycançılıq", "Azərbaycan tarixi", "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi", "Azərbaycan iqtisadiyyatı", "Azərbaycan nefti", "Azərbaycan elmi", "Azərbaycan mədəniyyəti", "Azərbaycan ədəbiyyatı", "Azərbaycan turizmi", "Azərbaycan muzeyləri" və s. elektron bazalar yaradılmışdır.

Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, elmi, təbii sərvətləri haqqında MEK-in hazırladığı biblioqrafik göstəricilərin xronoloji çərçivəsi genişləndirilmiş, məzmun istiqamətləri zənginləşdirilmişdir. Bu illər ərzində 100-ə yaxın kitab, monoqrafiya, biblioqrafik göstərici, elmi-metodiki vəsait, çap kataloqları hazırlanmışdır [1]. Kitablardan *"Azərbaycan folkloru və kitab mədəniyyəti", "Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar", "Milli mənəvi dəyərlərimiz: yaradanlar və yaşadanlar", "Kitabxanalarda marketinq və fandrayzinq fəaliyyəti", "Azərbaycan folklorunun nəşr tarixinin problemləri", "Azərbaycan füzulişünaslığının qaynaqları" (3 cilddə), "AMEA kitabxana siteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu" (1, 2-ci bur.), "Veblioqrafiya", biblioqrafik göstəricilərdən "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" (2 cilddə), "Heydər Əliyev və Azərbaycan elmi", "Azərbaycan folkloru", "Müstəqillik illərində Azərbaycan Milli Elmlər Akademiyasının elmi nəşrləri", "Müstəqilliyə gedən yol: Azərbaycan Xalq Cümhuriyyəti", "Azərbaycanda müdafiə olunmuş dissertasiyaların biblioqrafik göstəricisi", "Azərbaycan dünya mətbuatında", "Azərbaycanın repressiya olunmuş alimləri", "Molla Nəsrəddin jurnalının tədqiqi", "Qafqazşünaslıq. XVIII-XX əsrlər"* və b. göstərmək lazımdır. Eyni zamanda MEK-in fəaliyyətində şəxsi biblioqrafik göstəricilərin hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bunlardan *"A.Paşayev", "A.Mehdiyev", "R.Mehdiyev", "Zərifə Əliyeva", "A.Ələsgərov", "M.İbrahimov", "Arif İsmayılzadə"* və b. göstərmək olar.

Qeyd edək ki, “Azərbaycan folkloru və kitab mədəniyyəti” adlı monoqrafiya (müəllif- fil.ü.e.d. Aybəniz Əliyeva-Kəngərli) 2011-ci ildə Elmlər Akademiyalarının Beynəlxalq Assosiasiyasının Kiyev şəhərində keçirdiyi D.S.Lixaçev mükafatı uğrunda müsabiqəsinin nəticələrinə əsasən “Milli kitab mədəniyyəti kontekstində Azərbaycan folklor kitabının öyrənilməsinə bəxş etdiyi qiymətli xəzinəyə görə” diplomuna layiq görülmüşdür [1].

Son dövrdə MEK bir neçə beynəlxalq təşkilatlara üzv olmuşdur: *Elektron Kitabxanalar və Yeni İnformasiya Texnologiyalarının yaradıcıları və istifadəçiləri beynəlxalq Assosiasiyasının (2010), Avropa Elmi Kitabxanalar Assosiasiyasının (2012).* Hər il müxtəlif ölkələrdə təşkil olunan beynəlxalq simpoziumlara, tədbirlərə qatılaraq, Kitabxana bilik və təcrübə mübadiləsi aparır. Kitabxananın əməkdaşları ingilis, türk, rus, alman, fransız, ərəb, fars, dillərini bildikləri üçün beynəlxalq əlaqələrimiz günbəgün intensivləşir və dayanıqlı, etibarlı partnyorluğa çevrilir. Eyni zamanda MEK ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Yaponiya, İsveçrə, Türkiyə, İran, İraq, Misir, Suriya, Səudiyyə Ərəbistanı Krallığı, MDB dövlətləri və digər ölkələrin akademiyaları, elmi-tədqiqat institutları, kitabxana və informasiya təşkilatları, cəmiyyətləri və assosasiyaları, ali təhsil müəssisələri, nəşriyyatlar, redaksiyalar, ayrı-ayrı elm və mədəniyyət xadimləri ilə əlaqə yaradaraq, ədəbiyyat və informasiya mübadiləsi aparır.

Müxtəlif elmi mövzulara, əlamətdar və tarixi günlərə, ayrı-ayrı alim və yazıçı, dövlət xadimləri, konfrans və yubileylərə həsr edilmiş ənənəvi və virtual ədəbiyyat sərgiləri və eyni zamanda yeni daxil olan kitabların sərgiləri də MEK-in fəaliyyətində mühüm yer tutur.

AMEA-nın elmi müəssisələrindəki kitabxana şəbəkəsi üçün metodik mərkəz funksiyasını MEK həyata keçirir və bu məqsədlə onların fəaliyyətini istiqamətləndirir, kitabxana işçilərini yerlərdə təlimatlandırır, onların peşə səviyyəsinin yüksəlməsinə yönəlmiş kurslar, seminarlar, praktikumlar təşkil edir. Hazırda MEK-in ölkəşünaslıq fəaliyyətinin müasir səviyyədə yeniləşməsi, modernləşdirilməsi istiqamətində işlər məqsədəuyğun olaraq davam etdirilir.

Ölkəşünaslıq fəaliyyəti sahəsində Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası (bundan sonra – Prezident Kitabxanası) da önəmli töhfələr verir.

Prezident Kitabxanasının ölkəşünaslıq fəaliyyətinin ənənəvi vəzifələri materialların toplanmasından və oxucuların öz ölkələrinin tarix və mədəniyyətinin müasir vəziyyəti və gələcək inkişafı barədə məlumatlandırılmasından, onlarda doğma diyara qarşı maraq oyatmaqdan, vətənlərinə məhəbbət və qayğı ilə yanaşmanı tərbiyə etməkdən, maraqlı insanlarla görüşlərin təşkil edilməsindən və s. ibarətdir.

Son illər Prezident Kitabxanasında istifadəçilərə (oxuculara) xidmət göstərilməsi prinsip etibarı ilə yeni səviyyəyə keçmişdir. Kitabxananın informasiya resurslarının ayrılmaz hissəsi olan elektron resursları istifadəçilərə fəal şəkildə təqdim edilir. Materialların toplanması, təsvir edilməsi və sistemləşdirilməsi üzrə aparılan böyük işlər sayəsində istifadəçilər kitabxananın elektron resurslarından keyfiyyətli informasiya, o cümlədən, geniş ölkəşünaslıq və diyarşünaslıq üzrə məlumat almaq imkanına malikdirlər.

Prezident Kitabxanasında ölkəşünaslıq üzrə elektron resurslar rəhbərliyin nöqteyi-nəzərinə uyğun olaraq formalaşır ki, bu da elektron resursların daha rahat və geniş axtarış sistemi ilə təchiz edilməsinə, mühüm və yeni informasiyanın mümkün qədər istifadəçilərə tez çatdırılmasına kömək edir. Kitabxananın elektron ölkəşünaslıq resurslarına aşağıdakılar daxildir:

- *tarix-diyarşünaslıq mövzusunda olan sənədlərin tammətnli surətləri;*
- *kombinə olunmuş elektron biblioqrafik verilənlər bazası;*
- *diyarşünaslıq sənədlərini nümayiş etdirən veb saytlar;*
- *elektron diyarşünaslıq nəşrləri.*

Belə iş prosesində nəinki sadəcə olaraq informasiya toplanır, həm də yeni, nadir sənədlər yaradılır. Əldə edilmiş informasiyanın keyfiyyəti və onun təkrarsızlığı, mövzunun tam açılmasının xüsusi formasını tələb edir ki, bu da öz növbəsində Prezident Kitabxanasının tədqiqat, biblioqrafik, nəşriyyat fəaliyyətinin inkişafına yardım etmiş olur.

Prezident Kitabxanasının ölkəşünaslıq fəaliyyəti onun inkişaf etməsi üçün güclü alətdir. Ölkəşünaslıq işi özündə kitabxananın hüquqi, əxlaqi, ekoloji, estetik maarifləndirmə üzrə bütün əsas istiqamətlərdə fəaliyyətini əhatə edir. Bu problemlər üzrə elektron resurslara həmişə istifadəçilərin (oxucuların) - mütəxəssislərin, ali məktəb tələbələrinin, digər kitabxana əməkdaşlarının daha çox ehtiyacı olur.

Prezident Kitabxanası ölkəşünaslıq fəaliyyətində özü üçün daha yaxın olan istiqamətləri seçmişdir: ədəbi; tarixi; kulturoloji; etnoqrafik; ekoloji.

Ölkəşünaslıq mövzularının müəyyən informasiya resursları sistemi formalaşmışdır ki, bu da geniş informasiya təminatının həyata keçirilməsinə imkan verir. Prezident Kitabxanasının fəaliyyət istiqamətlərindən biri ölkəşünaslıq məlumat bazalarının yaradılması, onların daim yenilənməsi və daha da təkmilləşdirilməsidir.

Ən qədim zamanlardan başlayaraq müasir dövrə qədər xalqımızın keçdiyi tarixi yolu əhatə edən "Odlar Yurdu Azərbaycan" adlı tammətnli elektron baza kitabxananın əməkdaşları tərəfindən fonda daxil olan kitablar və dövri mətbuat materialları, həmçinin bəzi rəsmi saytlar əsasında hazırlanmışdır. Layihənin məqsədi ölkəşünaslıq xarakterli sənədlərin elektron daşıyıcılara köçürülmə yolu ilə saxlanılması, onları daha geniş istifadəçi kütləsinə təqdim edilməsindən ibarətdir. Bunun üçün aşağıda qeyd olunan istiqamətlər üzrə işləyən xüsusi veb-sayt www.odlaryurdu.az yaradılmışdır:

1. *Tarixi və mədəni əhəmiyyətə malik ölkəşünaslıq xarakterli sənədlərin toplanılması və indeksləşdirilməsi;*
2. *Cari informasiyaların elektron formada toplanılması və istifadəçilərə təqdim olunması;*
3. *Azərbycan Respublikasına həsr olunan ən yaxşı nəşrlərin elektron surətinin istifadəçilərə təqdim edilməsi;*
4. *Yerli dövri nəşrlərin bazalarının yaradılması, yerli və xarici dövri nəşrlərin rəqəmsal kolleksiyalarının yaradılması;*
5. *Sosial əhəmiyyətli istiqamətlər: səhiyyə, elm, hüquqi yardım və digər sahələr üzrə məlumat ünvanlarının yaradılması;*

*6. Elektron və çap formada ölkəşünasılq xarakterli yeni sənədlərin hazırlanması.*

Hər bir bölmədə aşağıdakı əlavə məlumatlar vardır: nəşrin qısa təsviri və annotasiya, mündəricat, fotoşəkillər, pdf və ya zip formatda olan tammətnli (fraqmentli) fayllar.

Respublikamızda əhalinin ekoloji maarifləndirilməsi və ekoloji mədəniyyətin formalaşdırılması məqsədi ilə Prezident Kitabxanasının əməkdaşları “Azərbaycan ekologiyası” adlanan və beş fəsildən ibarət olan sənəd-informasiya resursu hazırlamışdır. Onun “Ümumi məlumat” adlanan birinci fəslində “Ekologiya nədir” sualı cavablandırılır, ölkəmizdə həyata keçirilən ekoloji siyasətin əsas istiqamətləri təhlil edilir, ekoloji-coğrafi rayonlaşdırmanın təsviri verilir. Həmin fəslin “Biomüxtəlifliklər” bölməsində Azərbaycanda biomüxtəlifliyin qorunması vəziyyəti araşdırılır, 13 dövlət təbiət qoruğu ilə yanaşı, 8 milli park, 23 dövlət təbiət yasaqlığı və palçıq vulkanları haqqında məlumat verilir [5].

Sənəd-informasiya resursunun ikinci fəsli “Ekoloji problemlər” adlanır. Bu fəsildə Abşeron yarımadasının, Xəzər dənizinin, çayların ekoloji problemləri, habelə atmosferin çirklənməsi, səhralaşma, torpaqların eroziyası, qlobal istiləşmə, ozon qatının qorunması problemlərinə aid bölmələr verilmişdir. Bunlardan əlavə, Ermənistan ərazisindən keçib gələn çayların zərərli tullantılarla çirkləndirilməsi, işğal altında saxlanılan ərazilərdə biomüxtəlifliyin məhv edilməsi, radioaktiv tullantıların həmin ərazilərdə basdırılmasına aid məlumatlar “Ekoloji terror” başlığı altında təqdim olunur.

Resursun “Ekoloji maarifçilik” adlanan üçüncü fəslinin birinci bölməsində özündə bu sahəyə aid 1000-dən artıq termin və anlayışı əks etdirən elektron “Ekoloji lüğət” təqdim edilir. Azərbaycanın 60-a yaxın ekoloq alimi haqqında bioqrafik və biblioqrafik məlumatlar “Ekoloq alimlərimiz” bölməsində toplanmışdır [5]. “Ekoloji təqvim” adlanan bölmədə isə istər beynəlxalq aləmdə, istərsə də ölkə miqyasında ekologiya və ətraf mühitlə bağlı qeyd edilən hadisələrin və əlamətdar günlərin təqvimi təqdim olunur.

Elektron resursun “Qanunvericilik bazası” adlanan dördüncü fəslində Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsindən indiyədək ekologiya və ətraf mühitə dair qəbul edilmiş rəsmi sənədlər toplanmışdır. Rəsmi sənədlərə iki Milli Proqramın, bir Milli Strategiyanın, 4 Dövlət Proqramının, Azərbaycan Respublikasının 83 qanununun, Azərbaycan Respublikası Prezidentinin imzaladığı 73 Fərman və 71 Sərəncamın, Nazirlər Kabinetinin və digər mərkəzi icra orqanlarının 174 qərarının, habelə ölkəmizin qoşulduğu 20 Beynəlxalq Konvensiya və Protokolun tam mətnləri daxil edilmişdir.

Sənəd-informasiya resursunun sonuncu - 5-ci fəsli “Elektron resurslar” adlanır. “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ekoloji siyasəti” adlanan bölmədə dövlət başçısının ekologiyaya aid keçirdiyi müşavirələrin materiallarının tam mətnləri, iştirak etdiyi tədbirlərdəki çıxışları, müsahibələri, ekologiyaya dair söylədiyi fikirlər toplanmışdır. Fəslin “E-kitablar” bölməsində Kitabxananın fondunda olan ekologiyaya aid 13 seçmə kitabın elektron versiyası istifadəçilərə təqdim edilir.

Prezident Kitabxanasının əməkdaşları tərəfindən ekologiyaya aid dövri mətbuatda Azərbaycan, rus və ingilis dillərində dərc edilən 200-dən artıq aktual elmi-publisistik məqalənin elektron mətni “Məqalələr” bölməsində toplanmışdır. “Biblioqrafiya” bölməsində ekologiyaya aid Azərbaycan, rus və ingilis dillərində 220 kitabın, həmçinin 2004-cü ildən Kitabxanaya daxil olan dövri mətbuatdan seçmə 800-ə yaxın məqalənin biblioqrafik təsvirləri verilmişdir [5].

Prezident Kitabxanasında Naxçıvanın 85 illik yubileyi ilə əlaqədar “Naxçıvan Muxtar Respublikası-85” adlı internet resurs hazırlanmışdır.

İnternet-resursun yaradılmasında məqsəd internet istifadəçilərinin Naxçıvanın tarixi və hazırkı sərhədləri haqqında məlumatı özündə əks etdirən nadir diyarşünaslıq sənədlərindən istifadəni genişləndirmək və bu regiona aid sənədlərin Azərbaycanın mədəni irsinin bir hissəsi kimi qorumaqdır.

Qeyd edək ki, “Ümumi məlumat”, “Tarix”, “İdarəetmə sistemi”, “İqtisadiyyat”, “Elm və təhsil”, “Mədəniyyət”, “Resurslar” adlı 7 bölmədən ibarət olan bu resurs internet istifadəçilərinə Muxtar Respublika haqqında dolğun və operativ məlumat vermək məqsədi daşıyır.

Prezident Kitabxanası yarandığı gündən ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün sahələrinə aid sənədlərin toplanması və onların elektron variantının hazırlanması üzrə sistemli iş aparır.

“Heydər Əliyev. Elektron sənədlər toplusu” - ümumi istifadə üçün nəzərdə tutulan informasiya resursu və sənədlərin rəqəmsal formatda toplanması və qorunması üçün kompleks informasiya sistemidir.

Geniş oxucu kütləsinin və tədqiqatçıların ümummilli liderin zəngin irsini öyrənməyə çox böyük marağını nəzərə alaraq, internet resursda Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdəki nitqlərinin, çıxışlarının, məruzələrinin, bəyanatlarının, müsahibələrinin elektron versiyaları hazırlanmış və illər üzrə qruplaşdırılmışdır. Kitabxananın elektron kataloqunun “Biblioqrafiya” bölməsində Heydər Əliyev haqqında olan 400-dən çox kitab və 1500-dən çox dövri mətbuat materialı haqqında biblioqrafik informasiya yerləşdirilmişdir.

“Xronologiya” bölməsində ilk dəfə olaraq dahi şəxsiyyətin həyat və fəaliyyətinin əsas sahələri, şərəfli bir ömrün ən vacib məqamlarının Prezident Kitabxanası tərəfindən tərtib olunmuş xronologiyası internet istifadəçilərinə təqdim edilmişdir.

Ölkəmizin xarici siyasət kursunun, müstəqil beynəlxalq münasibətlərimizin və diplomatiyamızın formalaşmasında misilsiz xidməti olan Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə xarici ölkələrə etdiyi səfərlərin, bu səfərlər zamanı dövlət rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri ilə keçirdiyi görüşlərin də tam xronologiyası tərtib edilərək resursun “Xarici siyasət fəaliyyətinin xronikası” bölməsində istifadəçilərə təqdim olunmuşdur.

Haqlı olaraq bir çox mütəxəssislər kimi, biz də Prezident Kitabxanasının ölkəşünaslıq fəaliyyətini - tarixi, milli və mədəni irsin saxlanılması, insanların mənəvi və intellektual inkişafı üçün ən güclü vasitə hesab edirik və inanırıq ki, kitabxana bu sahədə elmi-tədqiqat işini daha da genişləndirərək ona tədqiqatçıları

cəlb edəcək və arxivlərlə, muzeylərlə, digər mədəni, eləcə də elmi müəssisələrlə əməkdaşlığı inkişaf etdirəcəkdir.

Beləliklə, respublikamızın ən iri 3 kitabxanasının ölkəşünaslıq fəaliyyətinin müasir vəziyyətinin təhlili deməyə əsas verir ki, bu sahədə kitabxanalarda ayrı-ayrı şöbələrin yerinə yetirdikləri ölkəşünaslıq işlərinin həcmi nəzərə alınmaqla, həm kitabxanaların daxili strukturları, həm də başqa kitabxanalarla fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsi genişləndirilməlidir.

**Ədəbiyyat:**

1. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının 2013-cü ildəki fəaliyyəti haqqında hesabat.- B.: Elm, 2014.- s. 275-278
2. Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri metodik və təcrübi jurnal.-2008. .-№2- S.7-30.
3. Tahirov K. M.F.Axundov adına Milli Kitabxana müstəqillik illərində// Humanitar elmləri öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi)/ Bakı Slavyan Universiteti. - B, 2010.-№2.- S.373-381.
4. Milli Kitabxananın "Diyarşünaslıq elmi biblioqrafiya"şöbəsinin hesabatları 2012-2016.
5. www.preslib.az

***Арзу Челеби***

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ СТРАНОВЕДЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ БИБЛИОТЕК АЗЕРБАЙДЖАНА

**Резюме**

В течение последнего десятилетия, в целях развития деятельности библиотек и информационных ресурсов, были приняты важные документы, а также разработана Государственная Программа. Эти директивные материалы дали библиотекам широкие возможности для интенсификации библиографической дятельности по страноведению и краеведению. В статъе освещены исследования в области создания в библиотеках Азербайджана информационных баз данных в области страноведения.

***Arzu Chalabi***

## CURRENT STATUS AND PERSPECİVES OF THE ACTİVİTIES OF REGİONAL STUDİES OF THE LİBRARIES OF AZERAİJAN

**Summary**

Over the past decade to develop library and information resources policy adopted by come materials, as well as the State Program. These materials have apaned up broad possibilities for intensification of regional geographic and local history bibliography. Article based on these materials were studied information data - bases by libraries on various topic geography.